# “Şairin səsi adi əks-səda ola bilməz”



■ Gülayə

Sənət dünyası da sirri açılmayan kainat, qalaqtika kimidi... Öz varlığında saysız-hesabsız planetlər, adı bilinməyən varlıqlar bətlənib-bəslənməkdədi. Özü bu planetlər daha əbədi, daha məhrəm və daha çox əbədidirlər.

Sənət dünyamızın belə böyük, əbədi planetlərindəndi Mirzə Ələkbər Sabir. Zamanında

***Dindirir əsr bizi, dinməyiriz,***
***Atılan toplara diksinməyiriz...***
***Əcnəbilər seyrə balonlarla çıxır,***
***Biz hələ avtomobil minməyiriz -***

deyə böyük vətəndaş ağrısı yaşayan, bu yöndən də “kim nə deyər bizdə olan qeyrətə?” üsyankarlığında bulunan Mirzə Ələkbər Sabir təbii ki, ilk növbədə öz dövrünün, zamanının şairi idi. Daha çox bədbəxt Tükəzbanların acı taleyinə aşinaydı, sadə əkinçilərin yanındaydı. Daha çox “qəzet almış Hacı Əhməd”lərin qeybətinə cəm olan soydaşlarının qəflət yuxusundan xəcalət çəkirdi. Ancaq eyni zamanda o, böyük bir dünyagörmüşlüklə, bəşəri fəhmi ilə bu günümüzün şairi idi. Gözünün qabağında ilbəil “bədtər olub” gedən dövrü-zamanın xilas yolunun yalnız sülhdə olduğunu dünyanın siyasət oyunbazlarının qafasına yeritməyin peşindəydi.

Nə qədər qəribə olsa da, Sabirin aşağıdakı misralarının daha çox məhz çağdaş zamanəmizin, yaşadığımız günlərin acılarını özündə ehtiva edən könül fəryadı kimi oxuyur, günün döyünən nəbzi kimi dinləyirik:

***Milləti-islam qırır bir-birin,***
***Allah aman, bu nə yaman qırhaqır.***
***Qardaşa bax, qardaşını öldürür,***
***Vəhşi olub əhli-cahan sərbəsər.***

Sabir bütün qəlbi ilə hər cür fənalıq qarşısında insanlığın nəinki duruş gətirəcəyinə, həm də qalib gələcəyinə inanırdı. Sabirin insan hünərinə bəslədiyi inam böyük Amerika romançısı Vilyam Folknerin gəldiyi qənaətlə paralel olaraq o reallıqdan çıxış edirdi ki, inamlı, qətiyyətli insan yalnız səsi eşidiləcək deyə yox, xarakterinə, qəlbinə görə, fədakarlığına, həmdərd ola bilməyinə görə əbədidir. “Yazıçının, şairin borcu bu haqda yazmaq, insanın duruş gətirə bilməli, qəlbləri möhkəmlənməli üçün yazmaq, kişilik, şərəf, ümid, qürur, iztirab, şəfqət, fədakarlıq hisslərini daim xatırlatmaq üçün yazmaq lazımdır. Bəşəriyyətin bəzəyi də məhz bu şeylərdir. Şairin səsi adi əks-səda ola bilməz, o, dayaq olmalıdır, qələbə üçün, insana duruş gətirə bilmək üçün əsas, özül olmalıdır”.

Sabir yaradıcılığı bütövlükdə bu özüldən keçirdi və sözün həqiqi mənasında elə bu özülün özü idi. Onun poeziyası öz dövrünün əsl hürr səsini, direnişini ehtiva edirdi, eyni zamanda təkcə öz əsrinə, zəmanəsinə bağlanıb qalmırdı, zamanın gəlişmələrilə bahəm çağdaşlaşır, müasirləşirdi.

Sabir hər şeydən əvvəl:

***Adətimiz daş idi dava günü,***
***Tullanırdıq əldə sapan qıjhaqıj -***

beyti ilə bütün Zamanlar üçün fəna hesab etdiyimiz qəbahətlərin acısını çəkməklə müasirimiz, çağdaşımızdı. O, bütün düşüncəsi, mübariz məfkurəsi ilə hürriyyət şairi idi. Və bu hürr səslənişinə səs verəsi soydaşlarından umduqlarını da xüsusi bir mərdanəliklə yansıtmaqda idi ki, “mən işi qaldırmışam, sizdən də himmət vəqtidir, yatmayın, huşyan olun, iş vəqti, qeyrət vəqtidir”.



Bu səsləniş bu günün özündə də qloballaşan, iqtisadi dəyərləri mənəvi dəyərlərini kölgədə qoyan dünyamızın hər cür fəsadlarına qarşı səfərbəredici missiyasını davam etdirməkdə və yadda qalmaqdadı ki:

***Etməyin qəflət,***
***bu fürsətdən***
***qənimət vəqtidir!***
***Yatmayın, huşyar olun,***
***İş vəqti, qeyrət vəqtidir.***

Bütün vətəndaşlıq və yaradıcılıq aşağı işə, qeyrətə, hünərə səsləniş olan Sabir ruhən ölmüşlərin, məzhəbi dönmüşlərin fəna durumuna acı göz yaşları tökür, məğlub durumları isə “ölməyib, murdar olan” bir para “rusbaşlı soydaşlarını” kəskin satirasının qırmancına hədəf edirdi, Ölməmişdən ölmüşlərin obrazı onun satira hədəfində belə yamanlanır, fəna durumları dərin bir ironiya ilə göz önünə gətirilirdi:

***Pa atonnan, nə yaman yatdı,***
***bu oğlan ölübə!***
***Nə də tərpənməyir***
***üstündəki yorğan ölübə.***

***Bu qədər qışqırığa***
***durdu qonum-qonşu təmam.***
***Dəbərişməz də,***
***veribdir deyəsən can, ölübə.***

***...Hansı bir doktora***
***Ərz elədim illətini,***
***Dedi çək bundan əlin,***
***boşla, bu çoxdan ölübə.***

Sabir bütün millət, milli varlıq sevgisi ilə bir arada milləti millət, dövləti dövlət yapa biləcək bir diriliyin, hürriyyətin şairi idi. Onun yaradıcılığı milli təəssübkeşlikdən uzaq bir aləmin, biganəliyin təəssüfündən qaynaqlanırdı. İran inqilabı, bütövlükdə hürriyyət savaşı yolunda “bütöv bir ordunun işini görə bilən Sabir” poeziyasının özülündə milli savaş, milli kimlik mücadiləsi başlıca qayı kimi öz məfkurəvi varlığını ortaya qoymuşdu. O, bütün mübarizliyi ilə “millət necə tarac olur-olsun, nə işim var, düşmənlərə möhtac olur-olsun, nə işim var?” - deyə öz hücrəsinin, cah-cəlalının həşirinə qalanlara asi idi. İlk növbədə böyük vətəndaş, böyük məsləkdaş idi. Dövrünün Cəlil Məmmədquluzadə, Əliqulu Qəmküsar, Şaxtaxtlı kimi böyük maarifçiləri ilə bir arada o, hər cür geriliyə, manqurtluğa qarşı savaş açırdı. Sabirin satirası ilk növbədə oyadıcı, səfərberedici satira idi. İncə

Yumor, eyham bu satiranın başlıca cəhətləri idi və bütün yazdıqlarını şirin bir dodaqqaçımı izləyirdi. Bu baxımdan da heç kəsi yaralanır, əzmir, yalnız həmdərd olmaq missiyası ilə yaddaşlarda qalır, sevilirdi. Sabirin yaradıcılığının bu böyük missiyasını zamanında böyük demokrat, ictimai-siyasi xadim olan Nəriman Nərimanov yüksək qiymətləndirir və tarixi yeri haqqında xüsusi bir ehtiramla söhbət açırdı.

Sabir yaradıcılığı əsl milli qeyrətdən su içən, xalqın, millətin mənafeyi naminə tarana gedən bir qəlbin könül meyvələridi. Bu yaradıcılıq hər cür “mənəmliyə”, anlamazlığa qarşı asi və barışmazdır.

Sabir oxunur, tədqiq edilir. Lakin ilk növbədə onun anlanılmağa ehtiyacı var. Onun satiralarının sözaltı mənaları əslində çürüməkdə və ölməkdə olan qaba bir dünyagörüşün sonu olmayan varlığına həmin dünyanın öz dilindən vurulan sillə, dağma kimi zaman-zaman açıqlanmalı, gündəmə gətirilməlidir. Sabir böyük sənətkarlarımızın da dönə-dönə haqqını haqladığı əsl kişi şair obrazını həmişə dəryada dayanan qocaman dağ timsalında hifz edə bilməsilə böyük sənətkar olaraq yaşayır.

---

## Çanaqqala etüdləri

Çənmi bu su Dardanel
Çanaqqala Çənlibel
tarixçən Atatürkcə
ingiliscə dünyanın
bir savaş günü türkcə

sizə kimdən deyim
kimlərdən
deyim dəli könüllərdən
könüllü dəlilərdən

ölən xınalandı öldü
yarasından bilindi
atəşə tənböləndi

ayaqsız qalmış mehmetçik
ruhunu tapşırdı göyə
batan düşmən gəmisini görməyə
“hamımızın öldüyünü
bəyan etməyə yalnız
geri gedə biləriz”
qalxdı şəhid
məzarı səngər olan zirvəyə

qəhrəman ayağı altda
saçın xınalandı torpaq
şəhidlər məzarı üstdə
xınalı saçındı bayraq

Türkiyəm
keçirt məni yaxandan
Dardanel boğazından

**QARDAŞXAN ƏZİZXANLI**

